AZƏRBAYCAN RESPUBLİKASI İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİ

# İSLAHAT İCMALI

# AZƏRBAYCAN KÖNÜLLÜLƏRİ

## XÜSUSİ BURAXILIŞ












Sentyabr, 2020






# AZƏRBAYCAN RESPUBLİKASINDA 2020-Cİ İLİN "KÖNÜLLÜLƏR İLİ" ELAN EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan xalqı əsrlər boyu xeyirxahlıq, fədakarlıq, könüllü və təmənnasız kömək ənənələrini yaşatmışdır.

Könüllülük insanları vahid niyyət ətrafında birləşdirən, vətəndaş, cəmiyyət və dövlətin birgə fəaliyyətinin ən uğurlu formatıdır. Könüllülük həm də vətənpərvərlik məktəbi, öz xalqına, dövlətinə, milli-mənəvi dəyərlərə bağlılıq və xidmət örnəyidir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, gənclərin fərdi inkişafına təkan vermək, onlarda sosial məsuliyyət hissini artırmaq, gəncliyin potensialından xalqın rifahı və ölkəmizin dayanıqlı inkişafı üçün səmərəli istifadə etmək məqsədilə qərara alıram:

1. 2020-ci il Azərbaycan Respublikasında "Könüllülər ili" elan edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti 2020-ci ilin Azərbaycan Respublikasında "Könüllülər ili" elan edilməsinə dair tədbirlər planını bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

İLHAM ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 30 dekabr 2019-cu il



# MÜNDƏRİCAT


01 İslahat Könüllüləri ... 3

02 Regional İnkişaf İctimai Birliyi könüllüləri ... 4

03 ASAN Könüllüləri ... 5

04 Könüllü DOST ... 6

05 "Könüllü gömrükçü" dəstəsi ... 7

06 Miqrasiya Könüllüsü ... 8

07 "Bir" Tələbə-Könüllü proqramı ... 9

08 Aqrar İnkişaf Könüllüləri ... 10

09 Könüllü Qida Nəzarətçisi ... 11

# AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİ

## İSLAHAT KÖNÜLLÜLƏRİ



İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi mütəmadi olaraq Könüllü Proqramı elan edir. Siz də İslahat Könüllülərinə qoşularaq, iqtisadiyyat, maliyyə, jurnalistika, informasiya texnologiyaları, qrafik dizayner sahəsində geniş təcrübə imkanı qazana bilərsiniz.




İİTKM-in “İslahat Könüllüləri” Təşkilatında 2016-2020-ci illərdə 300-dən artıq könüllü birləşib. İslahat Könüllüləri innovativ layihələrin ərsəyə gəlməsində, eləcə də, proqram təminatı, müxtəlif tədbirlərin təşkili, elmi araşdırmalar və tədqiqat işlərində yaxından iştirak edirlər. İslahat Könüllüləri İİTKM-də müxtəlif mövzularda apardıqları araşdırmalara dair təlim və seminarlar keçirir, təqdimatla çıxış edirlər.

Hazırda İslahat Könüllülərinin bir sıra könüllü məzunları ABŞ, Fransa, Estoniya, Macarıstan, Türkiyə, Rusiya və bir çox digər dövlətlərin nüfuzlu universitetlərində təhsil alırlar. Onlardan bir qismi dövlət və özəl sektorda, eləcə də, beynəlxalq təşkilatlarda çalışırlar.

# REGİONAL İNKİŞAF İCTİMAİ BİRLİYİ KÖNÜLLÜLƏRİ






Regional İnkişaf İctimai Birliyi cəmiyyətin sosial, iqtisadi və mədəni inkişafına töhfə vermək məqsədilə regionlarda ictimai nəzarətin həyata keçirilməsi, əhalinin elm, təhsil, səhiyyə, idman, turizm, ekologiya, sosial təminat, iqtisadiyyat, mədəniyyət, incəsənət, sahibkarlığın inkişafı və digər sahələrdə mövcud problemlərinin dövlət və bələdiyyə orqanları ilə əməkdaşlıq və dialoq şəraitində həllinə nail olunması, müxtəlif sahələrdə layihələrin icrası, dövlət tərəfindən regionların inkişafı sahəsində həyata keçirilən tədbirlərə dəstək verilməsi istiqamətində fəaliyyət göstərən könüllü təşkilatıdır.

RİİB Könünüllərinin əsas missiyası milli mənəvi dəyərlərə və dövlətçiliyə həmişə sadiqlik nümayiş etdirmək; şəffaflıq, ədalətlilik, məsuliyyətlilik və qarşılıqlı hörmət prinsiplərinə daima əməl etmək; hədəflərə doğru vahid komanda şəklində işləmək, bilik və təcrübəni bölüşmək mədəniyyətini təmin etmək; peşəkarlıq, təşkilatçılıq, yenilikləri, davamlı təkmilləşməni və yaradıcı düşüncəni stimullaşdırmaqdır.



# VƏTƏNDAŞLARA XİDMƏT VƏ SOSİAL İNNOVASİYALAR ÜZRƏ DÖVLƏT AGENTLİYİ

## ASAN KÖNÜLLÜLƏRİ



Təşkilatın müəyyən etdiyi missiyası könüllülərin inkişafına şərait yaratmaqla dövlətimizin dayanıqlı inkişafı üçün çalışan, cəmiyyətə faydalı gənc vətəndaşlar qazandırmaqdır. 16 gənclə könüllülük proqramına başlayan ASAN Könüllülərinin hazırda 1000-dən çox könüllü məzunu var.



Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində olan "ASAN xidmət" mərkəzlərində 9 iyun 2009-cu il tarixli "Könüllülük fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən könüllülük fəaliyyəti tətbiq edilməyə başlanıb. Yarandığı ilk gündən etibarən "ASAN xidmət" könüllülük fəaliyyətini ən geniş tətbiq edən dövlət orqanına çevrilib.

Könüllülər öz aralarında əlaqələrin gücləndirilməsi məqsədi ilə təşkilat yaratmaq qərarına gəlib və bu məqsədlə ilk öncə 2013-cü il oktyabr ayında bir qrup könüllü tərəfindən Təşəbbüs qrupu yaradılıb. 19 dekabr 2013-cü il tarixində "ASAN Könüllülərinin I Qurultayı" keçirilib və bununla da Təşkilat geniş ictimaiyyətə təqdim olunub. Yarandığı ilk gündən etibarən "ASAN Könüllüləri" gənclər təşkilatı gənclərin fərdi inkişafına yönələn layihələr keçirməyə başlayıb.

# ƏMƏK VƏ ƏHALİNİN SOSİAL MÜDAFİƏSİ NAZİRLİYİNİN DOST AGENTLİYİ

## KÖNÜLLÜ DOST





Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin DOST Agentliyi "DOST" mərkəzlərində və digər müvafiq layihələrində könüllülük fəaliyyətinin təşkil olunması üçün "Könüllü DOST" proqramını həyata keçirir.

Könüllü DOST proqramı "Gənc DOST", "Gümüşü DOST", "Virtual DOST", "Korporativ DOST" altproqramları olmaqla bir neçə altproqramdan ibarətdir.



"Könüllü DOST" proqramının məqsədi ictimai iştirakçılığın təşkili, könüllü hərəkatına dəstək, gənclər siyasətinə dəstək, dövlət-vətəndaş münasibətlərinin inkişafı, yüksək keyfiyyətli xidmət, gənclərin əmək bazarına hazırlığı və fəal yaşlanmanın təmin olunmasıdır.

# DÖVLƏT GÖMRÜK KOMİTƏSİ

## “KÖNÜLLÜ GÖMRÜKÇÜ” DƏSTƏSİ






“Könüllü gömrükçü” dəstəsi Dövlət Gömrük Komitəsi sistemində gənclərin potensialından daha səmərəli istifadə etmək, cəmiyyətin bütün sahələrində gənclərin fəal iştirakına şərait yaratmaq, onlara peşə vərdişlərini aşılamaq və təcrübi biliklərini artırmaq, onların yaradıcı və innovativ potensialının üzə çıxarılmasını dəstəkləmək və ölkədə könüllülük hərəkatını inkişaf etdirmək məqsədilə 2019-cu ilin mart ayında təsis edilib.

“Könüllü gömrükçü” dəstəsinə üzv olan gənclər fəaliyyət göstərdikləri müddət ərzində malların və nəqliyyat vasitələrinin bəyan edilməsi, gömrük bəyannamələrinin doldurulması qaydası, mallara dair sənədlərin yoxlanılması, gömrük hüquqpozmalarına qarşı mübarizə metodları, gömrük hüquqpozmalarının təhqiqatı və icraatı zamanı qanunvericilikdə tələb olunan bütün prosesual hərəkətlərin aparılması, mallar və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi, gömrük nəzarətinin həyata keçirilməsi, texniki nəzarət vasitələrindən istifadə etməklə gömrük sərhəddindən keçirilən mallar, nəqliyyat vasitələri və onları keçirən şəxslər üzərində gömrük nəzarəti işləri ilə və s. tanış olurlar.

# AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT MİQRASİYA XİDMƏTİ

## MİQRASİYA KÖNÜLLÜSÜ



Gənclərin ictimai həyatın bütün sahələrində təmsil olunması, cəmiyyət quruculuğu ictimai birliyin əsas istiqamətlərindən biridir. Miqrasiya könüllüləri Dövlət Miqrasiya Xidmətində təcrübə qazanmaq, xarici vətəndaşlarla yaxından əlaqə saxlamaq, miqrasiya proseslərini yaxından izləmək, habelə beynəlxalq tədbirlərdə iştirak etmək imkanına malikdirlər.




"Miqrasiya Könüllüsü" İctimai Birliyi Azərbaycan Respublikasının gənclər sahəsində fəaliyyət göstərən bir qeyri-hökumət təşkilatıdır. İctimai Birlik 7 fevral 2019-cu ildə Dövlət Miqrasiya Xidmətinin təşəbbüsü ilə yaradılıb. "Miqrasiya Könüllüsü" İctimai Birliyinin əsas məqsədi dövlət gənclər siyasətinin inkişafına dəstək ola biləcək hər sahədə gənclərin təşəbbüslərini stimullaşdırmaqdır. İctimai Birliyin prioritet istiqamətlərindən biri qeyri-hökumət təşkilatları ilə əlaqələrin gücləndirilməsi və mövcud əməkdaşlığı artırmaqla Azərbaycanın gənclər siyasətinə töhfə verməkdir.

# AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL NAZİRLİYİ

## "BİR" TƏLƏBƏ-KÖNÜLLÜ PROQRAMI




"Bir" Tələbə-Könüllü proqramı 14 dekabr 2015-ci ildə Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən Azərbaycanın siyasi və iqtisadi inkişafında böyük rol oynayan tələbə-könüllülərlə işi sistemləşdirmək, könüllülük fəaliyyətini stimullaşdırmaq, tələbələrin dərsdən kənar asudə vaxtlarının dəyərləndirilməsi üçün yaradılmış uzunmüddətli proqramdır.

"Bir" Tələbə-Könüllü proqramı Bakı, Sumqayıt, Mingəçevir, Gəncə, Şəki, Masallı, Lənkəran, Şamaxı, Ağdam, Göyçay, Quba şəhərlərində yerləşən 26 ali təhsil müəssisəsi və 18 orta ixtisas təhsil müəssisələrindən ibarətdir. Ümumilikdə Proqram 24.000-dən çox könüllünü əhatə edir.



Proqram tərəfindən tələbə-könüllülər üçün müntəzəm olaraq təlimlər, kurslar, seminarlar və təcrübə proqramları həyata keçirilir. Proqramın fəal tələbə-könüllüləri bir çox beynəlxalq forumlarda ölkəmizi layiqincə təmsil ediblər.

# AZƏRBAYCAN RESPUBLİKASININ KƏND TƏSƏRRÜFATI NAZİRLİYİ

## AQRAR İNKİŞAF KÖNÜLLÜLƏRİ





Bitkiçilik, elektron kənd təsərrüfatı sisteminin tətbiqi və təbliği, yeni bazar alətlərinin istifadəsi, torpaqların keyfiyyət meyarlarının ölçülməsində fermerlərə dəstək və innovativ texnologiyaların tətbiqində iştirak etmək "Aqrar İnkişaf Könüllüləri"nin fəaliyyətlərinə daxildir.

"Aqrar İnkişaf Könüllüləri" Kənd Təsərrüfatı Nazirliyinin regionlarındakı Dövlət Aqrar İnkişaf Mərkəzlərində (DAİM), nazirliyin şöbələrində, elmi-tədqiqat institutlarında və ixtisaslaşmış laboratoriyalarında fəaliyyət göstərir. Könüllülərin məqsədi aqrar sahənin inkişafı üçün çalışan könüllü cəmiyyəti formalaşdırmaqla gələcəkdə bu sahədə fəaliyyət göstərəcək ixtisaslaşmış kadrların yaranmasına, innovativ texnologiyaların və mövcud resursların səmərəli istifadəsinin təbliği ilə bu sahənin dayanıqlı inkişafına töhfə verməkdir.

# AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ

## KÖNÜLLÜ QİDA NƏZARƏTÇİSİ




"Könüllü Qida Nəzarətçisi" proqramının könüllüləri Agentlik tərəfindən sahibkarların və istehlakçıların maarifləndirilməsinə yönəlmiş genişmiqyaslı tədbirlərə cəlb edilir. Belə ki, könüllülər xüsusi geyim formasında ərzaq mağazaları və ictimai iaşə müəssisələrində vətəndaşlarla maarifləndirici tədbirlərdə iştirak edir, eyni zamanda ərzaq məhsulları alarkən diqqət ediləcək məqamlarla bağlı tövsiyyələri istehlakçıların nəzərinə çatdırır, qanun pozuntularının qarşısının alınması, ictimai qınağın formalaşdırılması məqsədilə fəaliyyətlərini uğurla davam etdirirlər.




"Könüllü Qida Nəzarətçisi" proqramı Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyində vətəndaşlara dəstək, istehlakçıların hüquqlarının müdafiəsi, ictimai nəzarətin gücləndirilməsi, hüquqi və mədəni maarifləndirmə, gənc mütəxəssislərin və tələbələrin qida təhlükəsizliyi sahəsində bilik və bacarıqlarının artırılması və könüllü olaraq bu işlərə cəlb edilməsi məqsədilə həyata keçirilən proqramdır.

Azərbaycan Respublikası İqtisadi
İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

iqtisadiislahat.org
ereforms.org
ecoreform.az
Bakı, Yasamal rayonu, Q. Xəlilov küçəsi 47, AZ 1073
Tel.: (+ 994) 12 521 25 35
info@ereforms.org

